# *Nazirlik rəsmisi:* "Azərbaycanın su ehtiyatları 15 faizədək azalıb"



**"İqlim dəyişiklikləri dünya ictimaiyyətini ciddi narahat edir". AZƏRTAC xəbər verir ki, bu sözləri ADA Universitetində keçirilən İqlim-Su Zirvəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov deyib.**

O, iqlim dəyişmələrinin su ehtiyatlarına olduqca mənfi təsir etdiyinə diqqət çəkib: "Ölkədə su obyektləri üzərində müşahidələr aparılır. Biz qlobal istiləşmənin bu sahədə yaratdığı fəsadların şahidi oluruq. Məhz bu səbəbdən Azərbaycanın su ehtiyatlarında 15 faizə qədər azalma var".

Ə.Əsgərov bu il COP29-un Azərbaycanda keçirilməsini mühüm hadisə kimi dəyərləndirib: "COP29-da "yaşıl planet" və sağlam gələcək naminə üzləşə biləcəyimiz problemləri idarə etmək üçün geniş müzakirələr aparılacaq".

Azərbaycan. - 2024.- 17 may, № 102.- S.14.